# ONU GÖRMƏK ÜMİDİ CƏNNƏTƏ QALDI...

***Azərbaycan Silahlı Qüvvələrinin MAXE hərbi qulluqçusu, Vətən müharibəsi şəhidi Taleh Səndəl oğlu İsmayılovun (26 noyabr 1986-cı il Lənkəran rayonu, Boladı kəndi - 4 noyabr 2020-ci il Şuşa) həyat yoldaşı Gülay İsmayılova ilə müsahibə***




Yaşadığımız bu keşməkeşli dünyada bəşər övladlarının məşğul olduqları yüzlərlə, minlərlə peşə sahələri, onların hər birinin işi, ayrı-ayrı məşğuliyyəti var. Hər kəs öz işinin maraqlı, eyni zamandaçətin tərəflərindən danışır. Bəzən onlardan birini dinləyəndə fikirləşirsən ki, onun çalışdığı peşədən çətin peşə yoxdur. Ancaq bir çətin və şərəfli peşəni bu vaxt unutmaq lazım deyil, çünki bu peşə çətinliyi və şərəfliliyi ilə bütün peşələrdən öndə, yüksəklikdə dayanır. Gəlin hamımız etiraf edəkki, bu, hərbiçilik peşəsidir. Bu peşə sahəsində çalışan insanlar öz peşələrinin çətinliklərindən, onun sirlərindən danışmırlar, danışa bilməzlər, bu, qanun pozuntusu olar, yəni hərbi sirrin yayılması. Eyni zamanda peşələri barədə danışmağa nə vaxt imkan verir, nə də peşələrinə uyğun olaraq içdikləri andları. Ona görə də onların çalışdığı bu işin, bu peşənin çətinliyindən danışmaq da, yazmaq da hərbi sirlər barədə qanunları pozmamaq şərti ilə əli silah yox, qələm tutan insanlara, yəni bizlərə düşür. Hərbiçi olan bir insan, təbii ki, çətinliklər görür,bərkə-boşa düşübbişir, necə ki polad odda bişib bərkidiyi kimi onlar da bişib-bərkiyir, möhkəmlənir, mətinləşir. Ancaq xidmət başında əbədiyyətə köçən bir hərbiçi ondan da çətin, müqəddəs, əlçatmaz iş görmüş olur, bu çətin işi ilə ən müqəddəs zirvəni-şəhidliyi və cənnəti qazanır. Çünki amalı yolunda həyatda ən şirin nemət olan canından keçir. Bu da ayrı bir sənətdir. Uca Allah qatında seçilmiş olmaq, Allah yolunda şəhid olmaq da ayrı bir peşədir, sənətdir. Bu peşə şərəfli, müqəddəs peşədir, lakin bu həyatda peşə sahibi özü onunla, qovuşduğu məqamla qürur duya bilmir. Onunla qürur duymaq ancaq şəhadətindən sonra qoyub getdiyi insanların, uğrunda canını verdiyi millətin, xalqın, canını uğrunda sevə-sevə verdiyi vətənin üzərinə düşür. Bu işin ən şərəfli tərəfi də odur ki, cənnətə köçəndə uğrunda canını verdiyin vətən torpaqlarına baxırsan, o torpaqlarda dalğalanan üçrəngli bayrağına baxırsan və o bayrağın altında nəfəs dərib o torpağın havasını ciyərlərinə çəkən yurddaşlarına baxırsan, kənardan seyr edirsən... Bu mənzərədən əvəzolunmaz sevinc tapmamaq mümkün deyil. Bu mənzərəni seyr edib fəxr etməyən başqa heç bir mənzərəylə fəxr edə bilməz. Bir Şəhidin yaşadığı qısa, lakin mənalı ömür müqabilində ona verilən ən böyük hədiyyələrdən birincisi cənnət, ikincisi də bu qürurdur, ruh şadlığıdır. Hesab edirəm ki, qazanılmasının 2-ci ilini yaşayacağımız şanlı Vətən müharibəsi Zəfəri bizə 200 illik bir tarixdə itirə-itirə getdiyimiz vətən torpaqları, bayraq qüruru ilə bərabər eyni zamanda daha çox şeylər qazandırdı. Zəfərlə birgə biz həm də igid,qəhrəman, qeyrətli oğullarımızı və onların dastanlarını qazandıq. Bu dastanlar nəsillərdən-nəsillərə ötürüləcək bir dərsdir, tarixdən heç vaxt silinməyəcək bir yaddaşdır. Çətin və şərəfli bir həyat yaşamaq istəyən cəsur gənclərimiz, cavanlarımız, mərdlərimiz bu dastanları özlərinin həyat kitabı, bu dastanların qəhrəmanlarını isə öz ideallları bilərək onların seçdikləri yolu seçəcəklər. Çünki qəhrəmanlar həmişə hər şeyin ən ulusuna, ucasına, ən yaxşısına layiqdirlər.

Bu gün haqqında müsahibə aparacağım Şəhidimiz isə uzun müddət ata yurdum olan Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndinin yaxınlığında, daha dəqiq desək, ana yurdum Xocavənd



rayonunun ərazisində olan qədim tariximizin səlnaməsi -Nərgiztəpə ərazisində yerləşən N saylı hərbi hissədə artilleriya batareyasında xidmət yolu keçmiş, 2014-cü ildən burada özünə peşə, sənət yolu seçib Aprel döyüşlərinə və Vətən müharibəsinə öz peşəsi ilə buradan yollanmışdır. Vətən müharibəsində Şəhadət şərbətini dadaraq qismməti olan cənnətinə qovuşmuşdur... Özündən sonra şərəfli bir həyat yolu, şərəfli bir döyüş yolu, şərəfli bir ailə və qürurlanan bir Vətən qoyub getmişdir... Haqqında yazdığım bu gənc, mərd, igid, qəhrəman MAXE hərbi qulluqçusu, artilleriyaçıŞəhid Taleh Səndəl oğlu İsmayılovdur!

Taleh İsmayılov 26 noyabr 1986-cı ildə Lənkəran rayonunun Boladı kəndində anadan olmuşdur. Orta təhsil aldıqdan sonra 2004-cü ildə müddətli həqiqi hərbi xidmət keçmək üçün Azərbaycan Ordusunun sıralarına yollanmış, Goranboy rayonunda yerləşən N saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra 2009-cu ildə Gülay xanımla ailə həyatı quran Şəhidimizin Vətənə əmanət 3 övladı yadigar qalmışdır. Bir müddət mülki sahədə fəaliyyət göstərən Şəhidimiz 2015-ci ildən Xocavənd rayonunun Nərgiztəpə adlanan ərazisində yerləşən N saylı hərbi hissənin artilleriya batareyasında müddətdən artıq hərbi qulluqçu kimi hərb sənətini davam etdirməyə başlamışdır. Bu mühüm qərardan 1 il keçmir ki, şanlı Aprel döyüşləri başlayır və Taleh İsmayılov Aprel döyüşlərinə cəbhə xəttində yerləşən bu hərbi hissədən yollanır. Ağcabədi-Ağdam-Xocavənd üçbucağında gedən döyüş əməliyyatlarında böyük şücaət göstərir. Bu döyüşlərdə can dostuna çevrilən əsgər yoldaşı, əslən Ağcabədi rayonunun hərbi hissəylə qonşu Arazbar kəndindən olan Ceyhun Möhübbət oğlu Hüseynovla birgə çiyin-çiyinə mətin addımlarla addımlayır. Onların bu dostluğu tezliklə ailə hüdudları çərçivəsində yaxınlığa və doğmalığa çevrilir. Döyüşlərdən sonrakı son 4 ildə onlar öz dostluqlarını daha da möhkəmləndirirlər. 2020-ci ildə Vətən müharibəsi başladıqda onlar hər ikisi xidmət etdikləri kənddə yaşayan ailə üzvləri ilə halallaşır və yenə həmin hərbi hissədən döyüşlərə yollanırlar. Taleh Ağdam-Xocavənd istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərərək düşmənə sarsıdıcı zərbə endirsə də 16 oktyabr 2020-ci ildə can dostu Hüseynov Ceyhunun şəhadətə yüksəlməsindən və onu da özü ilə birlikdə cənnətə aparmamasından bərk sar-




sılır. Bu sarsıntı eyni zamanda ona yeni bir qisas gücü də verir və Taleh tez bir zamanda özünü Ağdama, Xocavəndə, oradan da Qarabağın tacı olan Şuşaya yetirir. 4 noyabr 2020-ci ildə o, Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına Şəhidlik zirvəsinə yüksələrək can qardaşı Ceyhun Hüseynovun da uyuduğu cənnətə yollanır...

Taleh İsmayılov şəhadətindən sonra Ali Baş Komandan, cənab Prezidentimiz İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", "Xocavəndin azad olumasına görə" medalları və Müdafiə naziri cənab Zakir Həsənov tərəfindən "Şücaətə görə" medalıilə təltif edilmişdir. İndi isə gəlin, şəhidimizin 33 illik, qısa, lakin mənalı ömür yolunu onun ömür-gün yoldaşı Gülay xanımdan dinləyək.

**- Salam, xahiş edirəm, əvvəlcə özünüzü oxucularımıza təqdim edəsiniz.**

- Mən İsmayılova Gülay İbrahim qızı - Lənkəran rayonunun Boladı kəndində anadan olmuşam, şəhid Taleh İsmayılovun həyat yoldaşı və yadigar qoyub getdiyi 3 övladının anasıyam. Onun yadigarlarını böyütməkdən böyük şərəf duyuram.

**- Şəhidimizlə ilk tanışlığınızın necə olması, onunla ailə həyatı qurmaq barədə qərara gəlməyiniz haqqında nə deyə bilərsiniz? O anları necə xatırlayırsınız?**

- Talehlə ilk tanışlığımız belə olmuşdur ki, biz elə hər ikimiz bir kənddə yaşayırdıq, eyni orta məktəbi fərqli siniflərdə oxuyub-bitirmişik. Tanışlığımız da orta məktəb illərindən başlamışdır. Orta məktəbi bitirdik, o, əsgərliyə getdi, mən isə tələbə oldum.

Bir xeyli müddətdən sonra Taleh mənə olan sevgisini etiraf etdi. Daha sonra elçilərini göndərdi və ailələrimizin xeyir-duası ilə evləndik. Artıq dünyada bizdən xoşbəxt heç kim ola bilməzdi. Amma həyatda hər ikimizin ən çox qorxduğumuz ayrılıq idi. İkimizdə çox qorxurduq. Taleh hər zaman deyirdi ki, biz başqalarından fərqliyik, ona görə də sevgimiz də fərqli olacaq. Biz kimsəyə bənzəmirik, bənzəmərik. Hamıbizdən nümunə götürür və götürəcək... Deyirdi, qorxma, məni səndən ayırsa sadəcə ölüm ayıra bilər, başqa heç kim və heç nə...

Amma indi düşünürəm ki, Taleh o cümləni səhv düşünüb və ya səhv qurub... Bizi ölüm də ayıra bilmədi. Taleh günü-gündən daha çox sevilirvə Taleh bu tükənməz sevgisi ilə hər zaman qürur duyurdu... Hətta bəzən ailə tanışlarımızla bir yerdə olanda o günlərdən qürurla, fəxrlə danışırdı. Ən çox da sevgisi yolunda özünün apardığı mübarizədən... Taleh bu sevgini çətinliklə qazanmışdı və ona görə də sevgimiz hər zaman bizim üçün müqəddəs idi. Bu sevgi ilə böyüdük, bu sevgi ilə yaşadıq, bu sevgi iləşəhid olduq...

**- Şəhidimizin ailədə, tanışları və dostları arasında xarakteri, xasiyyəti barəsində nə deyə bilərsiniz?**

- Qeyd etdiyim kimi mən Talehi ilk məktəb vaxtlarından tanıdım. Sonra da illər keçdi, mənim onunla yaxından tanışlığım olmasa da mənə elə gəlirdi ki, onun hər xasiyyətini bilirəm, ailə həyatı qurduqdan sonra düşündüklərim doğru çıxdı. Onu o qədər səbirli, təmkinli, sakit görmüşdüm ki, elə bilirdim, Taleh heç vaxt hirslənmir. İlk dəfə nəyə isə əsəbləşdiyini görəndə təəccübləndim, dedim, görəsən, mənim tanıdığım Taleh əsəbiləşə bilir? Çünki o, çox səbirli biri idi.



***Sevindik NƏSİBOĞLU,***
***9-cu sinif şagirdi,***
***şair-publisist, AJB üzvü***